# İnformasiya Texnologiyaları İnstitutunda elmi-praktik seminar keçirilib






Yanvarın 31-də AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunda akademiyanın elmi-tədqiqat institut və təşkilatları, o cümlədən ölkənin bir sıra ali təhsil və elmi müəssisələrinin İKT üzrə məsul şəxslərinin iştirakı ilə "AzScienceNet: mövcud vəziyyəti, imkanları və inkişaf perspektivləri" mövzusunda respublika elmi-praktik seminar keçirilib.

Tədbiri AMEA-nın akademik-katibi, İnformasiya Texnologiyaları İnstitutunun direktoru, akademik Rasim Əliquliyev giriş sözü ilə açaraq seminarın "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası və "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"dan irəli gələn vəzifələrin yerinə yetirilməsinə xidmət etdiyini bildirib. Qeyd edib ki, həmin konsepsiya və strategiyanın tədbirlər planında da AzScienceNet Elm - Kompüter Şəbəkəsinin (EKŞ) imkanlarının genişləndirilməsi məsələləri öz əksini tapıb. Akademik AMEA-nın bütün elmi müəssisə və təşkilatlarını vahid infrastrukturda birləşdirən AzScienceNet şəbəkəsinin təqdim etdiyi imkanlar barədə məlumat verərək onun elektron elmin texnoloji platformasını təşkil etdiyini diqqətə çatdırıb. Bildirilib ki, AzScienceNet-in texniki imkanlarının genişləndirilməsi istiqamətində görülmüş işlər nəticəsində hazırda AMEA-nın elmi müəssisə və təşkilatlarına məxsus 6500-ə yaxın kompüter avadanlığı AzScienceNet şəbəkəsinə qoşulub və şəbəkəyə qoşulanların 97 faizi genişzolaqlı İnternetdən istifadə edir. 2016-cı il oktyabrın 18-də isə şəbəkənin xidmətlərinin sayının artırılmasına dəstək məqsədilə 26 elmi müəssisə və təşkilatı əhatə edən Akademiya Şəhərciyində 4000-ə yaxın əməkdaşa genişzolaqlı İnternet xidməti göstərən, müasir telekommunikasiya avadanlıqları və proqram təminatları ilə təchiz olunmuş AzScienceNet-in yeni İnternet Xidmətləri Mərkəzi istifadəyə verilib.

R.Əliquliyev ölkədə elm və təhsil sahələrinin inteqrasiyasında AzScienceNet-in böyük imkanlara malik olduğunu bildirərək AMEA və Təhsil Nazirliyi arasında bu istiqamətdə işgüzar əməkdaşlıq əlaqələrinin qurulduğunu söyləyib. Alimin sözlərinə görə, AMEA-nın elmi tədqiqat müəssisələri ilə yanaşı, ölkənin təhsil müəssisələri də AzScienceNet və Data Mərkəzin xidmətlərindən yararlana bilərlər.

"AzScienceNet dünyanın nüfuzlu beynəlxalq təşkilatları ilə sıx əməkdaşlıq əlaqələri quraraq AMEA-nın institut və təşkilatları əməkdaşlarının dünyanın elm və təhsil şəbəkələrinin təqdim etdiyi imkanlardan yararlanmasına şərait yaradır", - deyən R.Əliquliyev bunun nəticəsində alimlərin öz tədqiqatlarında böyük həcmli verilənlərdən birgə istifadə etməsinə və böyük miqyaslı elmi layihələr həyata keçirməsinə imkan yarandığını qeyd edib. 2015-ci ildə AzScienceNet-in Təhsil Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin dəstəyi ilə Avropa Elm və Təhsil Şəbəkələri Assosiasiyasının (GEANT) milli operator statusunda üzvlüyünə qəbul olunduğunu seminar iştirakçılarının diqqətinə çatdırıb.

Akademik, həmçinin AzScienceNet şəbəkəsinin bir sıra regional elm və təhsil müəssisələrinə videokonfrans və distant xidmətlər göstərdiyini və bu xidmətlərin institutun Tədris-İnnovasiya Mərkəzi vasitəsilə həyata keçirildiyini bildirib.

Keçirilən seminarın əhəmiyyətinə toxunan R.Əliquliyev rəhbərlik etdiyi institutun İKT sahəsində mövcud olan elmi problemlərin həlli üçün ölkənin bütün alim və mütəxəssisləri, ali təhsil və elmi müəssisələri ilə birgə əməkdaşlığa hər zaman hazır olduğunu söyləyib.

Sonra mövzuyla bağlı İnformasiya Texnologiyaları İnstitutunun texnologiyalar üzrə direktor müavini, texnika üzrə fəlsəfə doktoru, dosent Rəşid Ələkbərov, institutun məsul əməkdaşları Ramiz Şıxəliyev, Təhmasib Fətəliyev, Babək Nəbiyev, Vüqar Musayev, Kəmalə Haşımova və başqalarının məruzələri dinlənilib.

Daha sonra məruzələr ətrafında geniş fikir mübadiləsi aparılıb, çoxsaylı suallar cavablandırılıb.

Sonda Azərbaycan Texnologiya Universitetinin rektoru, professor Akif Süleymanov çıxış edərək tədbirin keçirilməsinin əhəmiyyətini vurğulayıb, AzScienceNet xidmətinin böyük imkanlara malik olduğunu bildirib. Rəhbərlik etdiyi universitetlə İnformasiya Texnologiyaları İnstitutu arasında əməkdaşlıq əlaqələrinin davam etdirilməsinin önəmini qeyd edən rektor, elm və təhsilin inteqrasiyasının üstünlükləri barədə fikirlərini seminar iştirakçıları ilə bölüşüb.

**Samirə KƏRİMOVA,**
*"Azərbaycan müəllimi"*